

# ZİRVƏLƏRDƏN ZƏFƏRLƏRƏ

**Azərbaycan tarixinin son 30 ili mühüm hadisələrlə zəngindir. Həmin illərin hər biri, bəlkə də hər ayı, hər günü dəyərli olsa da, bu dövrün 3 ili xüsusi qeyd edilməlidir: 1993-cü il - xalqın tələbi ilə Ulu öndərin hakimiyyətə qayıdışı, 2003-cü il - cənab İlham Əliyevin həmin yolu davam etdirmək əzmi ilə Prezident seçildiyi il və 2020-ci - Zəfər ili. Zənnimcə, bu üç hadisənin bir-biri ilə məntiqi bağlılığı da vardır: əgər Ümummilli lider həmin həlledici ildə hakimiyyətə gəlməsəydi, 2003-cü ildə ölkəmizi nəinki yeni bir inkişaf mərhələsi gözləyərdi, Azərbaycanın bir dövlət kimi mövcudluğu da böyük sual altında olardı.**

1993-cü ildə ölkədə hərc-mərclik baş alıb gedir, torpaqlarımızın işğalı isə davam edirdi. Düşmənlərimiz Azərbaycanı parçalayıb bir dövlət kimi tarix səhifəsindən silmək məqsədi güdürdülər. Bəzi xarici qüvvələr xalqın arzusunun əksinə olaraq Heydər Əliyevin hakimiyyətə gəlişinə mane olmaq üçün Ermənistana və daxildəki separatçı qüvvələrə dəstək verirdilər. Onlar yaxşı bilirdilər ki, dünyada böyük nüfuza malik və güclü siyasətçi olan Heydər Əliyev hakimiyyətə gələrsə, qurulmuş planlar iflasa uğrayacaqdır. Belə bir mürəkkəb, bəlkə də çıxılmaz siyasi şəraitdə Ulu öndər rəhbərliyə gəldikdən sonra xalqın dəstəyi ilə ölkədə süni yaradılmış separatçı meyillərin qarşısını aldı, Ermənistanla atəşkəsə nail oldu, 1994-cü ilin oktyabrında, 1995-ci ilin martında baş verən dövlət çevrilişlərinə cəhdlər də daxil olmaqla bir neçə qiyamı neytrallaşdırdı, "Əsrin kontraktı"nı imzaladı, ölkədə ictimai-siyasi sabitliyi bərqərar etdi, qısası, Azərbaycanı tarixin bu sınaqlarından üzüağ çıxarmağı bacardı.

Bu gün təxminən 30 illik məsafədən həmin tarixi mərhələni nəzərdən keçirərkən bir daha əmin oluruq ki, xalqımız ölkəmizin bugünkü uğurlarının bünövrəsini qoymuş və Azərbaycanın dinamik inkişaf konsepsiyasının ideoloji təməlini yaratmış Heydər Əliyevi o zaman hakimiyyətə dəvət etməklə böyük müdriklik nümayiş etdirmişdir.

2003-cü il oktyabrın 15-də isə ulu öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı İlham Əliyev xalqımızın etimadını qazanaraq Azərbaycan Prezidenti seçildi və bununla da ölkəmizin inkişafında yeni bir mərhələ başlandı. Azərbaycan dəqiq siyasi məharətlə qurulmuş təməllər üzərində sabit, dinamik inkişaf edən, qüdrətli, böyük beynəlxalq nüfuza malik ölkəyə çevrildi, nəticədə, 2020-ci ildə möhtəşəm Qələbə qazandı. Ulu öndərin böyük siyasi uzaqgörənliklə dediyi sözlər bir müddət sonra həqiqətə çevrildi: *"İlham Əliyev yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".*

Prezident İlham Əliyevin ali dövlət vəzifəsində ilk günlərdən başlayaraq nümayiş etdirdiyi yüksək idarəçilik məharəti, qətiyyətli və milli maraqlara söykənən daxili və xarici siyasəti çox keçmədən öz müsbət nəticələrini verdi. O, Ümummilli liderin əsasını qoyduğu neft siyasətini uğurla hədəf mərhələsinə çatdırdı, daxil olan neft gəlirlərini nəzərdə tutulan məqsədlərə - böyük quruculuq işlərinə, əhalinin sosial rifahının yüksəldilməsinə yönəltdi.

Azərbaycanda yoxsulluğun azaldılmasına, regionların inkişafına dair Dövlət proqramları qəbul olundu, böyük sosial-iqtisadi və mədəni-mənəvi irəliləyiş əldə edildi, ictimai həyatın bütün sahələrində: beynəlxalq münasibətlərdə, sosial-mədəni sahələrdə, iqtisadiyyatda və s. ciddi nailiyyətlər qazanıldı.

Ötən illər ərzində iqtisadiyyata 250 milyard dollar xarici investisiya qoyuldu, ölkənin iqtisadi potensialı bir neçə dəfə böyüdü, valyuta ehtiyatları 50 milyard dollara çatdırıldı, yoxsulluq və işsizlik minimum səviyyəyə endirildi, 2 milyona yaxın yeni iş yeri açıldı, əməkhaqqı və pensiyalar dəfələrlə artırıldı, biznes mühitinin yaxşılaşdırılması üçün ardıcıl tədbirlər həyata keçirildi.

Prezident İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan bu gün dünyada bir çox transmilli layihələrin təşəbbüskarı və icraçısı, etibarlı tərəfdaş kimi tanınır. Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, Azərbaycan qazını Avropaya çatdıran Cənub Qaz Dəhlizi, TAP və TANAP layihəsi, Avropanı Asiya ilə birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu, Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizləri ölkəmizi bölgənin energetika və nəqliyyat mərkəzinə çevirmişdir.

Bu mərhələdə əsas məqsədlərdən biri də milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin yüksəldilməsinə və dünya təsərrüfat sisteminə səmərəli inteqrasiyasına nail olmaqla, ölkədə dinamik sosial-iqtisadi inkişafın davamlılığını təmin etmək olmuşdur.

Son illər dövlət başçısının imzaladığı fərmanlarda, təsdiq etdiyi Dövlət proqramlarında bu hədəflərin reallaşması üçün yerinə yetirilməsi zəruri olan vəzifələr müəyyənləşdirilmişdir. O, böyük hədəfləri uğurla fəth edərək müstəqil dövlətimizi uca zirvələrə çatdırmışdır. Azərbaycanda cəmiyyət həyatının bütün sahələri üzrə qazanılmış böyük nailiyyətlər ölkəmizin müstəqillik dövrü inkişafının İlham Əliyev zirvəsi olaraq xalqımızı daim yüksəlişə doğru istiqamətləndirir. Ulu öndər Heydər Əliyevin strateji kursunu davam etdirərək və yaradılmış sosial-iqtisadi bazaya əsaslanaraq Prezident İlham Əliyev zamanın yeni çağırışlarına cavab verir, bu isə postsənaye cəmiyyəti problemlərini sürətlə həll etmək və postsənaye (innovasion) cəmiyyəti quruculuğuna keçilməsi deməkdir.

Ötən müddət ərzində ölkənin sosial-iqtisadi infrastrukturu bütövlükdə yenidən qurulmuş, çadır şəhərcikləri ləğv edilmiş, 15 min kilometrdən çox yol çəkilmiş, 450 körpü inşa olunmuş, Bakıda 4 yeni metro stansiyası açılmış, Füzuli aeroportu da daxil olmaqla 7 hava limanı, Ələt qəsəbəsində yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı inşa edilmiş, Azərbaycan böyük enerji və nəqliyyat qovşağına çevrilmişdir. Son 18 ildə ölkədə 3700-dək yeni məktəb, 750-dən çox xəstəxana binası tikilib və ya əsaslı təmir edilib, regionlarda 40-dan çox olimpiya idman kompleksi inşa olunmuşdur. Yüzlərlə tarixi bina, teatr, muzey, idman sarayı, sosial reabilitasiya mərkəzi və s. obyektlər əsaslı təmir və ya inşa edilmişdir. Bu illər ərzində ümumi daxili məhsul 3,2 dəfə, dövlət büdcəsi 6 dəfə artmışdır. Əhalinin nominal gəlirləri 9,7 dəfə, orta aylıq əməkhaqqı 9,1 dəfə, pensiyaların orta aylıq məbləği 12,7 dəfə artmışdır. İşsizliyin səviyyəsi 7,2 faizədək, yoxsulluğun səviyyəsi 44,7 faizdən 6,2 faizədək enmişdir. Ötən illərdə respublika iqtisadiyyatında islahatlar kursu inamla davam etdirilmiş, xüsusən də regional inkişafa, qeyri-neft sektorunun yüksəlişinə, infrastrukturun müasirləşdirilməsinə, neft amilindən asılılığın minimuma endirilməsinə, sahibkarlığın inkişafına və güclü insan kapitalının formalaşdırılmasına xidmət edən mühüm addımlar atılmışdır.

Azərbaycan dünyada mühüm beynəlxalq tədbirlərin, yarışların keçirildiyi ölkə kimi tanınmış, Bakı "Eurovision" mahnı müsabiqəsinə, ilk Avropa Oyunlarına, IV İslam Həmrəyliyi Oyunlarına, "Formula 1" yarışlarına, futbol üzrə Avropa çempionatının final mərhələsinin bir neçə oyununa və digər beynəlxalq yarışlara ev sahibliyi etmiş və bu gün də edir. Dövlət strukturlarının fəaliyyətinin təkmilləşdirilməsi və şəffaflığın artırılması, vətəndaşlara yüksək səviyyəli xidmətlərin göstərilməsi istiqamətində ASAN xidmət və DOST mərkəzləri kimi bir çox layihələr, inqilabi islahatlar həyata keçirilmişdir.

Regionların sosial-iqtisadi inkişafının həyata keçirilməsi ilə bərabər, Şərq ilə Qərbin mədəni müxtəlifliyini özündə birləşdirən Bakı şəhəri son illərdə daha da gözəlləşmişdir. Prezident İlham Əliyevin vətənpərvərlik hissindən yaranan yaradıcılıq palitrasının rəngləri ilə dəyişən Bakı müasir şəhərsalma mədəniyyətini yaşadaraq və qədimliklə müasirliyin vəhdətində bir az da inkişaf edərək Avropanın ən gözəl meqapolislərindən birinə çevrilmişdir.

Ölkəmizdə yeniləşmə, davamlı inkişaf, sosial-iqtisadi tarazlıq, modern reformalar və digər sistemli hədəflərin reallaşması təmin edilmişdir. Azərbaycan bu gün dünyanın məhdud saylı kosmik ölkələri sırasında yer alır. "Azerspace-1", "Azersky" və "Azerspace-2" peykləri orbitdə uğurla fəaliyyət göstərir.

Həyata keçirilən müdrik siyasət nəticəsində Azərbaycanın dünyada mövqeləri güclənmiş, müttəfiqlərimizin və dostlarımızın sayı artmışdır. Ölkəmiz BMT, Avropa Birliyi, Avropa Şurası, NATO, Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, ATƏT, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, UNESCO, ICESCO və digər beynəlxalq qurumlarla intensiv əməkdaşlıq edir. Respublikamız BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmiş, özündə 120 ölkəni birləşdirən və BMT-dən sonra dünyada ən böyük siyasi təsisat olan Qoşulmama Hərəkatına sədrlik etmişdir. Prezident İlham Əliyevin qlobal liderlik səylərinə yüksək qiymət verilərək təşkilata sədrlik müddəti daha bir il artırılmışdır. Bəşəriyyətin ümumi problemi olan pandemiya ilə mübarizə sahəsində Azərbaycan 2020-ci ildə Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən nümunəvi ölkə adlandırılmışdır. Azərbaycan, həmçinin Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları həcmində könüllü maliyyə töhfəsi, 30-dan artıq ölkəyə koronavirusla mübarizənin dəstəklənməsi üçün humanitar və maliyyə yardımı etmiş, bundan əlavə, dörd ölkəyə təmənnasız olaraq 150 min doza vaksin göndərmişdir.

> "Cənab İlham Əliyevin çevik, çoxtərəfli fəaliyyəti, Azərbaycanın təşəbbüskarlığı və ev sahibliyi ilə Bakıda keçirilən çoxsaylı mötəbər beynəlxalq tədbirlərin nəticəsidir ki, Bakı artıq regionun "diplomatik paytaxtı"na çevrilmişdir. Azərbaycan son illər bəşəriyyətin gələcək inkişafı naminə mədəniyyətlərarası, konfessiyalararası və sivilizasiyalararası dialoq üçün real imkan və mexanizmlərin müəyyən edilməsinə xidmət göstərən bu cür müzakirələrin təşəbbüskarı və təşkilatçısı missiyasını yerinə yetirir."

Prezident İlham Əliyev Azərbaycan dövlətinin rəhbərliyinə təkcə Ümummilli liderin siyasi varisi, onun məktəbinin davamçısı kimi yox, həm də yenilikçi - yeni zamanın yeni lideri olaraq gəlmişdir. O, idarəçiliyin elə demokratik və optimal yolunu seçmişdir ki, hər bir sağlamdüşüncəli ölkə vətəndaşının dövlətçiliyin inkişafında öz yeri vardır. Dövlət quruculuğunda bu yer hər kəsin məhz vətənpərvərliyinə, biliyinə, sağlam zəkasına, qabiliyyətinə görə müəyyənləşmişdir.

Son 18 ildə biz möhtərəm Prezidentimizin bir çox beynəlxalq tribunalarda cəsarətli, dərin məntiqə söykənən çıxışlarının şahidi olmuşuq. İlham Əliyev ikili standartları çəkinmədən tənqid edir, milli maraqları qətiyyətlə qoruyur. Liderin qətiyyətinin, iradəsinin nəticəsidir ki, ən ağır vəziyyətlərdə belə Azərbaycan heç kimin qarşısında baş əymir, sözünü cəsarətlə və açıq deyir. Yerində və vaxtında deyilən söz, əlbəttə, daha kəsərli, daha təsirli olur. Çox da uzağa getmədən son vaxtlar baş vermiş iki hadisəni xatırlamaq kifayət edər. Ermənistanın baş naziri Paşinyan Dağlıq Qarabağın mənsubiyyəti ilə bağlı sərsəm fikirlər səsləndirmişdi. Azərbaycan Prezidenti ona cavab verməyə tələsmədi, bunun üçün münasib məqam gözlədi. Nəhayət, belə bir məqam yetişdi. İlham Əliyev sözünü Rusiyada, "Valday" Diskussiya Klubunun tribunasından dedi: *"Qarabağ Azərbaycandır və nida işarəsi".* Mötəbər tribunada, canlı efirdə deyilən bu sözü bütün dünya eşitdi. Hamıya bir daha agah oldu ki, Qarabağ Azərbaycanındır! Azərbaycanın lideri münaqişə ilə bağlı haqlı mövqeyindən bir addım da geri çəkilən deyil.

> "Prezident İlham Əliyev Azərbaycan dövlətinin rəhbərliyinə təkcə Ümummilli liderin siyasi varisi, onun məktəbinin davamçısı kimi yox, həm də yenilikçi - yeni zamanın yeni lideri olaraq gəlmişdir. O, idarəçiliyin elə demokratik və optimal yolunu seçmişdir ki, hər bir sağlamdüşüncəli ölkə vətəndaşının dövlətçiliyin inkişafında öz yeri vardır. Dövlət quruculuğunda bu yer hər kəsin məhz vətənpərvərliyinə, biliyinə, sağlam zəkasına, qabiliyyətinə görə müəyyənləşmişdir."

Ermənistan rəhbərliyinin əsl mahiyyətini açıb göstərən, ifşa edən növbəti bəyanat bir neçə gün sonra Aşqabadda, MDB dövlət başçılarının Zirvə görüşündə səsləndi. Azərbaycan Prezidenti diqqəti Ermənistanda nasist Qaregin Njdeyə ucaldılmış abidəyə yönəltdi. Dedi ki, MDB məkanında faşistlərə abidələr ucaldılması yolverilməzdir və Yerevandakı abidə sökülməlidir. İlham Əliyevin səsləndirdiyi bu fikir ətrafında hələ də müzakirələr gedir, Ermənistan rəhbərliyinin mövqeyi pislənilir.

Dünyada artmaqda olan islamofobiyanı kəskin tənqid edən İlham Əliyev müsəlman və İslam həmrəyliyinə inadlı çağırışları ilə də yadda qalıb. Bununla bağlı çıxışlarının birində səsləndirdiyi fikir hamımızın ürəyindən xəbər verdi: "Mən müsəlman ölkələrinə dəfələrlə müraciət etmişəm. Açıq müraciət etmişəm ki, siz Ermənistanla necə qucaqlaşırsınız? Siz bunların liderlərini necə dəvət edirsiniz? Görmürsünüzmü ki, bunlar bizim məscidlərimizi yerlə bir etdilər? Görmürsünüz ki, bizim məscidləri təhqir etdilər? Gedin, baxın, o şəkillər var, onlar Ağdam məscidini, Şuşa məscidlərini, işğal edilmiş digər torpaqlardakı məscidləri nə günə qoydular? Bu axı təkcə bizim məscidlərimiz deyil, bütün müsəlman aləminin məscidləridir. Buna necə göz yummaq olar?"

Ulu öndərin siyasi kursunu böyük müdrikliklə davam etdirən Prezident İlham Əliyev onu yeni dövrün tələblərinə uyğun zənginləşdirmiş, sosial-iqtisadi islahatlarla demokratikləşmə proseslərinin paralel şəkildə aparılmasına, birinin digərini tamamlamasına nail olmuşdur. Cənab İlham Əliyevin prezidentliyi dövründə məhz bu postulat əsas götürülmüş, iqtisadiyyat həyata keçirilən çoxşaxəli islahatların əsas ağırlıq mərkəzini, nüvəsini təşkil etmişdir. Başqa sözlə, praqmatik liderlik keyfiyyətlərinə malik olan möhtərəm İlham Əliyev keyfiyyətcə yeni mərhələdə Azərbaycanın müasir dövlətə çevrilməsini və tam müstəqil siyasət yürütməsini milli ideyanın başlıca hədəfi kimi müəyyənləşdirmişdir.

Ulu öndərin Azərbaycançılıq ideoloji xəttini davam etdirərək Prezident İlham Əliyev keçmişə ehtiramla yanaşmaq, onu dərindən bilmək və onun ən müsbət nümunələrini gənclərin mənəvi və vətənpərvərlik ruhunda tərbiyə işində istifadə etməyi günümüzün ən vacib vəzifələrindən sayır. Prezident İlham Əliyevin fəaliyyəti Azərbaycanın siyasi, iqtisadi və mədəni landşaftını dəyişib. O, müasir şəraitdə dövlət başçısı üçün zəruri olan bütün keyfiyyətlərə malikdir. İlham Əliyevə Azərbaycan xalqını öz arxasınca aparmaq missiyasını tarix, yeni dövr özü həvalə edib.

Dövrün artıq başlıca məqsədi biliklər iqtisadiyyatı, sosial kapitala əsaslanan dövlət-cəmiyyət sisteminin təkmilləşdirilməsidir. Bu isə ictimai sərvət və dəyərlərə, prioritet və meyarlara keyfiyyətcə yeni münasibət bəsləməyi nəzərdə tutur. Müasir şəraitdə isə buna seçilmiş addımlarla, prioritet və dəyərlərin köməyi ilə, başqa sözlə, müasirliyi texniki və informasiya imkanlarını milli ənənələrlə birləşdirərək, elmin inkişafına impuls verməklə nail olmaq olar. Cənab İlham Əliyev vətəndaşların mənafeyini düşünərək dövlət idarəetməsində struktur islahatları həyata keçirir.

Prezident İlham Əliyev dövlət idarəetmə siyasətində yeni təfəkkürü təmsil edən novator bir lider kimi hakimiyyətə başladığı andan həm də paralel olaraq ən müasir istiqamətlərdə islahatlara start vermişdir. Dövlət rəhbərinin müəyyən etdiyi yeni istiqamətlər həyatın daxili təbii məntiqinin, ölkə reallıqlarının və mövcud dünya təcrübəsinin nəzərə alınması əsasında formalaşdırıldığı üçün bütün sahələrdə gerçək davamlı inkişafa geniş yol açmışdır. İlham Əliyev Azərbaycan siyasi sisteminə məntiqi mühakimələrə və analitik təhlilə əsaslanan, mütərəqqi, pozitiv, milli məqsədlərə xidmət edən realizmə söykənən siyasi fəaliyyət nümunəsi gətirərək radikalizmi, siyasi şantaj və ekstremizmi siyasi sistemimizdən çıxardı. O, pozitiv enerji doğurmaq bacarığı olan, sosial fəaliyyətə üstünlük verən, natiqlik və ünsiyyətçillik məharəti ilə, eyni zamanda, ekstraordinar keyfiyyəti ilə fərqlənən, fərdi xüsusiyyətlərinə görə xarizmatik bir rəhbərdir.

Azərbaycan Prezidentinin yeritdiyi uğurlu diplomatiya sayəsində dünya siyasətinə təsir imkanları getdikcə artan Azərbaycanın bütövlükdə Avratlantika coğrafi arealında sülh, tərəqqi və əməkdaşlıq mərkəzinə, habelə beynəlxalq miqyaslı enerji-kommunikasiya layihələrinin lokomotivinə çevrildiyi getdikcə daha qabarıq sezilir. Bu xarici siyasət strategiyası müstəqil dövlətimizin milli mənafelərinə hörmətlə yanaşan bütün beynəlxalq təşkilatlar və xarici dövlətlərlə əməkdaşlıq əlaqələrinin daha da genişləndirilməsi müstəvisi üzərində qurulmuşdur. Azərbaycan hazırda sülh və əməkdaşlıq paytaxtı kimi tanınır və belə bir müsbət imicin formalaşmasında cənab İlham Əliyevin təşəbbüsü ilə respublikamızda keçirilən beynəlxalq toplantıların əhəmiyyətini xüsusi vurğulamaq lazımdır. Avropa ailəsinə inteqrasiya edən Azərbaycan cəmiyyəti bütün liberal dəyərləri mənimsəmiş, insan hüquq və azadlıqlarının təminatı, demokratikləşmə sahəsində mühüm uğurlara imza atmışdır.

Azərbaycanın daxili və xarici siyasəti müstəqillik və suverenlik prinsiplərinə əsaslanır. Xarici siyasi əlaqələrini respublikamız siyasi, iqtisadi, hərbi, humanitar və digər sahələrdə müttəfiqlərini, əməkdaşlıq etdiyi ölkə və beynəlxalq təşkilatları özü seçir. Azərbaycan öz təbii sərvətlərinin sahibi kimi enerji sahəsində əməkdaşlıq əlaqələrini dövlət maraqları və qarşılıqlı faydalılıq prinsipləri əsasında reallaşdırır. Eyni zamanda, ölkəmizin iqtisadi gücü elə bir səviyyəyə çatıb ki, dünya bazarlarında baş verən kəskin dəyişikliklərin, böhranların təsir gücü ən aşağı həddədir. İlham Əliyev demokratiyanın istismarçı siyasi vasitə deyil, milli mədəniyyətimiz və mentalitetimizlə, eyni zamanda müsəlman sosial-psixoloji yanaşma ilə uzlaşan bir dəyər və yaşam tərzi olduğunu sübut etməklə islamofobiyanı dövlət siyasətinə çevirən ölkələrə və bütün dünyaya göstərir ki, bu gün müsəlman aləmində dinamik, müasir, öz milli-mənəvi dəyərlərinə sadiq, güclü, intellektual əsaslarda yeni demokratik modernist cəmiyyət formalaşdıra bilən bir dövlət vardır. Cənab İlham Əliyevin çevik, çoxtərəfli fəaliyyəti, Azərbaycanın təşəbbüskarlığı və ev sahibliyi ilə Bakıda keçirilən çoxsaylı mötəbər beynəlxalq tədbirlərin nəticəsidir ki, Bakı artıq regionun "diplomatik paytaxtı"na çevrilmişdir. Azərbaycan son illər bəşəriyyətin gələcək inkişafı naminə mədəniyyətlərarası, konfessiyalararası və sivilizasiyalararası dialoq üçün real imkan və mexanizmlərin müəyyən edilməsinə xidmət göstərən bu cür müzakirələrin təşəbbüskarı və təşkilatçısı missiyasını yerinə yetirir.

(davamı 4-cü səhifədə)

# ZİRVƏLƏRDƏN ZƏFƏRLƏRƏ




(əvvəli 3-cü səhifədə)

Son illərdə paytaxtımızda keçirilən müxtəlif səviyyəli forumlar dünya ölkələrinin dövlət siyasətində multikulturalizmin mövqe və imkanlarının bir daha təhlilinə, etnik və mədəni özünüdərk arasında azad seçimin təmin olunmasına, azadlıq, bərabərlik və dözümlülük kimi təməl dəyərlərin cəmiyyətdə bərqərar olmasına yönələn qlobal miqyaslı tədbirlər olaraq, dünyanın ən yeni tarixinə əhəmiyyətli hadisələr kimi daxil olmuşdur. Demokratik dəyərlərin universallaşması prosesinin tərs üzü "demokratiyanı müdafiə etmək" bayrağı altında müstəqil ölkələrin daxili işlərinə kobudcasına qarışmaq, onlara siyasi təzyiq göstərmək, dövlətin öz vətəndaşının hüquq və azadlıqlarına riayət etməsinin səviyyəsini qiymətləndirərkən ikili standartlar qəbul etdirmək cəhdləridir. Əsrlər boyu yaranmış milli ənənələri bir anda məhv etmək mümkün deyil. Demokratiyanın kənardan zorla qəbul etdirilməsi cəhdləri isə bəzi şərq ölkələrində müşahidə etdiyimiz acınacaqlı vəziyyətlərə gətirib çıxarmışdır. Cəmiyyətin demokratikləşməsi sosial, siyasi və iqtisadi prosesdir və hər bir konkret sosium üçün onun özünəməxsus fərqləndirici cəhətləri vardır. Demokratiya iqtisadi inkişaf, azadlıq və konsensusla bağlıdır. Sivil dünyanın qəbul etdiyi meyarlara cavab verən və balanslı xarici siyasət həyata keçirən ölkəmiz özünün Cənubi Qafqaz regionundakı əhəmiyyətli ərazi, geostrateji və geoiqtisadi üstünlüklərindən maksimum faydalı şəkildə yararlanmağa, habelə beynəlxalq təşkilatlarda layiqli təmsilçiliyə çalışmışdır.

Əlverişli nəqliyyat-kommunikasiya və tranzit imkanlarına, iqtisadi inkişaf dinamikasına, etnik-dini tolerantlığına görə Avrasiya qitəsinin ən cəlbedici məkanlarından birinə çevrilən Azərbaycan ayrı-ayrı dövlətlərin bölgədə toqquşan maraqlarının optimal balansına da uğurla nail olmuşdur. Bunun nəticəsidir ki, ölkə başçısı müdrik, qətiyyətli və cəsarətli siyasəti ilə xalqını tarixi qələbəyə qovuşdurdu: doğma torpaqlarımız düşmən işğalından azad edildi, ərazi bütövlüyü uğrunda aparılan Vətən müharibəsi çoxdan gözlənilən böyük bir zəfərlə başa çatdı! Prezident İlham Əliyev ötən 18 il ərzində millətimiz üçün ən ağrılı bəla olan erməni işğalının aradan qaldırılması üçün yorulmadan çalışırdı. Dövlət başçısı Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı prinsipial mövqeyini hər zaman belə ifadə edib: "Azərbaycan heç vaxt öz ərazi bütövlüyünün pozulması ilə barışmayacaq, torpaqlarında ikinci erməni dövlətinin yaranmasına yol verməyəcəkdir. Ölkəmizin ərazi bütövlüyü tam bərpa edilməli, azərbaycanlılar əzəli yurdlarına qayıtmalıdırlar. Qarabağ Azərbaycandır və nida". Dünyanın güc mərkəzləri arasında sərt və mürəkkəb mübarizənin getdiyi bir dövrdə Prezident İlham Əliyevin apardığı xarici siyasət əksər dövlətlər üçün örnək rolunu oynaya bilər. Son zamanlar yaşadığımız region ətrafında baş verən hadisələr bir daha göstərir ki, rəsmi Bakının həyata keçirdiyi müstəqil daxili və xarici siyasət kursu xalqımızın milli maraqlarının reallaşdırılması və dövlətçiliyimizin inkişafını təmin edən ən optimal yoldur. Azərbaycan Ordusunun döyüş qabiliyyəti artırılmış, Silahlı Qüvvələrin maddi-texniki bazası möhkəmləndirilmişdir. Nəticədə, Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasında yer almışdır. Məhz bu ordu öz Ali Baş Komandanının rəhbərliyi ilə 2020-ci il sentyabrın 27-də Ermənistanın hərbi təcavüzünə cavab olaraq qurtuluş savaşına başlamış, 30 ilə yaxın müddətdə işğal altında qalan torpaqlarımız 44 gün ərzində azad olunmuş, dünyanı heyrətə salan hərbi uğurlara imza atılmışdır.

Əlbəttə, hakimiyyətə gəldiyi ilk illərdə Heydər Əliyevin yolunu davam etdirməli olduğuna görə İlham Əliyevin həll edəcəyi məsələlər çox genişmiqyaslı idi. Onlar - dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsi, iqtisadi artımın yüksək sürətinin təmin edilməsi və yeni iş yerlərinin yaradılması, xalqın sosial rifah səviyyəsinin yüksəldilməsi, Silahlı Qüvvələrin modernləşdirilməsi yolu ilə ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi, xarici siyasət sahəsində milli maraqların təmin edilməsi, Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası və sair çox mürəkkəb məsələlərdən ibarət idi. Azərbaycanın üzləşdiyi xarici siyasi təzyiqlər də İlham Əliyevdən müstəsna qabiliyyətlər tələb edirdi. Azərbaycan uğurlu çoxvektorlu xarici siyasət apararaq, eyni zamanda həm Rusiya, həm Avropa İttifaqı və ABŞ ilə, həm də digər maraqlı dövlətlərlə bərabər münasibətlər qura bildi. Heydər Əliyev məktəbinin istedadlı yetirməsi keçmişin təcrübəsindən məharətlə bəhrələnərək daha incə və mürəkkəb məsələləri həll edə bilən modernləşən siyasət həyata keçirməyə başladı və onu uğurla davam etdirir.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi güclü dövlət, güclü ordu, milli birlik strategiyası və döyüşçülərimizin təmin edilmiş ruh yüksəkliyi nəticəsində Azərbaycan ordusu regionda ölkəmizin maraqlarına cavab verən yeni siyasi reallıq yaratdı. Vətən müharibəsinin davam etdiyi 44 gün ərzində 9 şəhər, 4 qəsəbə və 300-dək kənd işğaldan azad edildi, Cəbrayıl, Füzuli, Zəngilan, Xocavənd, Qubadlı, Ağdam, Kəlbəcər, Laçın və Şuşa rayonları, Ağbənd, Hadrut, Suqovuşan, Mincivan qəsəbələri sahibinə qaytarıldı. Vətən müharibəsi günlərində dini, etnik, regional, siyasi və sosial mənsubiyyətindən asılı olmayaraq, bütün Azərbaycan xalqı Vətən naminə, Qələbə naminə Müzəffər Ali Baş Komandanın ətrafında yumruq kimi birləşdi.

> **Müzəffər Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi güclü dövlət, güclü ordu, milli birlik strategiyası və döyüşçülərimizin təmin edilmiş ruh yüksəkliyi nəticəsində Azərbaycan ordusu regionda ölkəmizin maraqlarına cavab verən yeni siyasi reallıq yaratdı. Vətən müharibəsinin davam etdiyi 44 gün ərzində 9 şəhər, 4 qəsəbə və 300-dək kənd işğaldan azad edildi. Vətən müharibəsi günlərində dini, etnik, regional, siyasi və sosial mənsubiyyətindən asılı olmayaraq, bütün Azərbaycan xalqı Vətən naminə, Qələbə naminə Müzəffər Ali Baş Komandanın ətrafında yumruq kimi birləşdi.**

Azərbaycan üçün milli qürur, milli-mənlik, mədəniyyət, incəsənət, tarix, eyni zamanda Ulu öndərin vəsiyyəti olan Şuşanın işğaldan azad olunması təmin edilmişdir. Vətən müharibəsi günlərində dünyanın aparıcı mediasına verilən 30-dan artıq müsahibə ilə dünya informasiya məkanında ölkəmizə qarşı olan hücumlar darmadağın olunmuşdur. Prezident İlham Əliyevin rəhbərliyi ilə tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycan dövlət quruculuğu sahəsində mühüm uğurlar əldə edə bilmişdir. Cəmiyyətdə müsbət əhvali-ruhiyyə, mənəvi birlik təmin edilmiş, milli ideya və dəyərlər sistemi formalaşmışdır. Azərbaycanda demokratik inkişaf, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu yolunda sistemli tədbirlər həyata keçirilmiş, nəticədə təkmil siyasi sistem bərqərar olunmuşdur. Hüququn aliliyi, ictimai həyatın bütün sahələrində qanunun hökmranlığı prinsiplərinin mühafizə olunması dövlətin və vətəndaşların qarşılıqlı mənəvi məsuliyyətinin güclənməsi təmin edilib, hüquqi dövlətin təməlləri daha da möhkəmlənmişdir.

Dünyanın ən fərqli geosiyasi qütbləri ilə münasibətlər qorunmuş, beynəlxalq güc mərkəzlərindən gələn təzyiqlər neytrallaşdırılmış, toqquşan maraqlar uzlaşdırılaraq Azərbaycan sabitliyin hökm sürdüyü əməkdaşlıq məkanına çevrilmişdir. Milli maraqlar, xalqın ali mənafeyi, ölkəmizin suverenliyi qətiyyətlə qorunmuş, infoimperializmin ölkəmizə qarşı mümkün neqativ təsirləri neytrallaşdırılmışdır. Azərbaycanda xaricdən idarə edilən xaosa, separatçı hərəkətlərə, sosiumun dini, ideoloji və siyasi platformada qütbləşməsinə imkan verilməmişdir. Qarşısıalınmaz qloballaşma prosesində milli-mənəvi dəyərlər, xalqın milli özünəməxsusluğu qorunub saxlanılmışdır. Ölkəmizdə mədəniyyətin inkişafı, milli-mənəvi dəyərlərimizin, zəngin tolerantlıq və multikulturalizm mühitinin qorunub saxlanılması təmin edilmişdir.

Hesab edirəm ki, son 18 ildə həyata keçirilmiş möhtəşəm layihələr, qazanılmış parlaq tarixi qələbə, bütün bu uğurların təşkilatçısı olan Prezident İlham Əliyevin çoxşaxəli fəaliyyəti geniş işıqlandırılmalı, kitablar qələmə alınmalı, gələcək nəsillərə həqiqətlər olduğu kimi çatdırılmalıdır.

Prezident İlham Əliyevin parlaq həyat yolu və xalqımızın rifahı naminə göstərdiyi möhtəşəm xidmətlər, gördüyü böyük işlər, qazandığı tarixi qələbə barədə 2021-ci ilin sonlarında çap edilmiş "Zəfərə aparan yol" kitabında da geniş məlumat verilir. Kitab Müzəffər Ali Baş Komandanın 60 illik yubileyinə həsr edilmişdir. Qeyd etmək istəyirəm ki, onun böyük sərkərdəlik məharəti ilə idarə edilən qəhrəman ordumuz doğma torpaqlarımızı yadelli işğalçılardan azad edərkən məni bir vətəndaş kimi fərəh və qürur hissi ilə yanaşı, bu qələbə üçün əlimdən gələn nə isə etmək məsuliyyəti düşündürürdü. Ancaq yaşıma görə gedib cəbhədə vuruşmaq, igid oğullarımızla bir sırada dayanmaq imkanım yox idi. Ona görə də qərara aldım ki, mən də öz vətəndaşlıq borcumu bu ordunun Ali Baş Komandanına həsr edilən kitab yazmaqla yerinə yetirim. Şükürlər olsun ki, uzunmüddətli tədqiqatların, gərgin əməyin, arxivlərdə və kitabxanalarda araşdırmaların, şahidlərlə görüşlərin nəticəsində ötən ilin sonunda - Prezident İlham Əliyevin ad günü ərəfəsində belə bir kitab ərsəyə gəldi. Onu da vurğulamaq istəyirəm ki, elm və təhsil sahəsində mütəxəssis olduğuma görə kitabda cənab Prezidenti yetirən məktəblərə və özünün yaratdığı möhtəşəm məktəbə geniş yer ayrılır.

Bir daha xüsusi vurğulamaq istəyirəm ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük müharibədə hərbi proseslərin gedişi və yekun nəticələri XXI əsrin hərbi-siyasi əməliyyatlarının ən mükəmməl nümunəsi hesab edilə bilər! O, BMT-nin Təhlükəsizlik Şurasının və onun daimi üzvü olan 3 həmsədr dövlətin, ATƏT-in Minsk qrupunun və beynəlxalq konvensiyaların gücünün çatmadığı, həll edə bilmədiyi Qarabağ problemini 44 gün ərzində uğurla həll etdi. Arxasında dünya erməniliyi, ayrı-ayrı ölkələrdəki ermənipərəst qüvvələrin dayandığı Ermənistanı, otuz il ərzində pulsuz silahlandırılaraq Qarabağda möhkəmlənmiş erməni ordusunu darmadağın etdi, onlara diplomatiya sahəsində və informasiya müharibəsində də üstün gəldi. İkinci Dünya müharibəsindən sonra BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvünü çıxmaq şərti ilə dünyada digər heç bir dövlət müharibədə öz məqsədinə çatmamışdı. Azərbaycan bu sindromu da dəyişdi. Sübut etdi ki, qələbə yalnız səngərdəki döyüşlərlə əldə edilmir, qalib olmaq üçün həm də beynəlxalq münasibətlərin nüfuzlu fiquru olmaq lazımdır!

**Misir MƏRDANOV,**
**AMEA Riyaziyyat və Mexanika İnstitutunun direktoru,**
**AMEA-nın müxbir üzvü, professor.**